AZƏRBAYCAN RESPUBLİKASI
SƏHİYYƏ NAZİRLİYİ

AKADEMİK ZƏRİFƏ ƏLİYEVA ADINA
MİLLİ OFTALMOLOGİYA MƏRKƏZİ

# AKADEMİK ZƏRİFƏ ƏLİYEVA ADINA MİLLİ OFTALMOLOGİYA MƏRKƏZİNİN REGİONAL ŞÖBƏSİ, MASALLI ŞƏHƏRİ.

Azərbaycan Respublikasının cənub bölgəsinin əhalisinə yüksəkixtisaslı oftalmoloji yardımın göstərilməsi məqsədi ilə 2008-ci ilin 7 oktyabr tarixində Masallı şəhərində akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin regional şöbəsinin təntənəli açılışı olmuşdur. Açılışda Azərbaycan Respublikasının prezidenti İlham Əliyev və Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva iştirak etdilər.







Klinika ən müasir diaqnostik və cərrahi avadanlıqlarla təchiz edilmişdir.

Klinikanın fəaliyyəti müntəzəm şəkildə aparılır. Klinikanın işi üç əsas istiqamətdə aparılır:

1. görmə orqanının patologiyası olan xəstələrin erkən aşkar edilməsi və qeydə alınması, oftalmoloji yardımın ən müasir texnologiya növlərinin tətbiqi və həyata keçirilməsi;
2. yerli oftalmoloji kadrların ixtisasının artırılması;
3. sanitar maarif və əhalinin sanitar-gigiyenik tərbiyəsi.







Yüksəkixtisaslı oftalmoloji müayinələrin aparılması ilə yanaşı klinikada ən müasir texnologiyaların və avadanlığın istifadəsi ilə oftalmocərrahi müdaxilələr aparılır, bu isə reabilitasiya dövrünü və fəsadların tezliyini ixtisara salmağa imkan yaradır.

Açılış günündən etibarən 2010-cu ilə qədər Masallı regional şöbəsində aparılmış oftalmoloji müayinələrin və cərrahi əməliyyatların sayı, müvafiq olaraq, 3144 (onlardan 2142 nəfəri birincili, 1002-si isə ikincili xəstə) və 464 təşkil etmişdir, 2009-cu il üzrə bu göstəricilər, müvafiq olaraq, 2500 (onlardan 1550-si birincili və 950 nəfəri isə ikincili xəstə) və 361 təşkil etmişdir. 2010-cu ilə qədər aparılmış cərrahi əməliyyatların ümumi sayından 392-si (84,5 %) kataraktanın ekstraksiyası təşkil etmişdir, bunlardan 64-ü (16 %) fakoemulsifikasiya üsulu ilə yerinə yetirilmiş; antiqlaukomatoz əməliyyatlar 40 (8,6%) xəstədə aparılmış; digər cərrahi əməliyyatların (çəpgözlüyə qarşı, qanadvarı pərdənin götürülməsi, yaş yollarının patologiyası ilə əlaqədər və s.) sayı 32 (6,9 %) olmuşdur. 2009-cu ildə isə aparılmış cərrahi əməliyyatların ümumi sayından 317-si (88 %) kataraktanın ekstraksiyası təşkil etmişdir, bunlardan 40-ı (12,6 %) fakoemulsifikasiya üsulu ilə yerinə yetirilmiş; antiqlaukomatoz əməliyyatlar 28 (7,8 %) xəstədə aparılmış; digər cərrahi əməliyyatların sayı isə 16 (4,4 %) olmuşdur.

Masallı şəhərində akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin regional şöbəsinin açılması cənub bölgəsində oftalmoloji yardımın yüksək texnologiyalı növlərinin tətbiqi və həyata keçirilməsinə imkan verir və görmə orqanın xəstəliklərinin profilaktikasında böyük rol oynayır.

***Redaksiya heyəti***